# "Nəsimi ili" xalqımızın mənəviyyatı və mədəniyyəti ilə birbaşa əlaqəlidir



Böyük Azərbaycan şairi və filosofu İmadəddin Nəsiminin yaradıcılığı və şəxsiyyəti Azərbaycanda çox yüksək qiymətləndirilir və onun doğma xalqına yenidən qayıdışı xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz 1973-cü ildə ulu öndər Heydər Əliyev böyük Nəsiminin 600 illik yubileyinin ilk dəfə dövlət səviyyəsində qeyd olunmasına və hətta bu yubileyin UNESCO xəttiylə də layiqincə keçirilməsinə nail ola bilmişdir ki, sovet dövründə bu hadisə böyük inqilab sayılırdı. O vaxt Nəsimiyə heykəl də qoyuldu. Müəllifi Tokay Məmmədov olan həmin heykəl bu gün şəhərimizin ən gözəl yerlərindən birində ucalır. Eyni zamanda böyük mütəfəkkirə həsr olunan film də çəkildi, elmi tədqiqatlar aparıldı, kitablar nəşr olundu. İndi isə UNESCO-nun mötəbər tədbirləri Azərbaycanda keçirilir. Bu da Azərbaycanın yarım əsrdə keçdiyi möhtəşəm inkişaf yolunun göstəricisi, ölkəmizlə bu təşkilat arasında əlaqələrin möhkəm özülünün təsdiqidir.

Azərbaycan mədəniyyətinə, mili-mənəvi dəyərlərimizə böyük önəm verən hörmətli Prezidentimiz cənab İlham Əliyev də böyük Nəsiminin yaradıcılığını və poeziyasını yüksək dəyərləndirərək onun əsərlərinin dəfələrlə ölkəmizdə yüksək tirajla və nəfis bədii tərtibatla nəşrini təmin etmiş, dahi Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 2019-cu ilin bütövlükdə Azərbaycanda "Nəsimi ili" elanı barədə tarixi sərəncamlar imzalamışdır.

Belə ki, gənc nəsil Nəsimini daha yaxından tanıyacaq, onun haqqında yenə də təzə kitablar, elmi əsərlər yazılacaq, gələcək nəsillər də bundan bəhrələnəcəklər. Prezident İlham Əliyevin "Nəsimi ili" ilə əlaqədar sərəncamı bu böyük şəxsiyyətin yaradıcılığını, xalqımıza verdiyi böyük töhfələri yenidən dərk və təhlil etmək üçün fürsət yaratdı. Ötən illər ərzində Nəsiminin adı nəinki ölkəmiz daxilində, hətta beynəlxalq arenada da uca tutulub, dünya ictimaiyyəti də onun yaradıcılığı ilə tanış olub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd olunub. Ötən il və bu il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkəmizdə ilk dəfə "Nəsimi – poeziya, incəsənət və mənəviyyat" festivalı keçirildi. Festival çərçivəsində ölkəmizdə çoxsaylı ölkələrdən ədiblər, alimlər və tədqiqatçılar iştirak edirdi. Bu festival Nəsimi irsinin öyrənilməsi və dünyaya tanıdılması ilə yanaşı, ölkəmizin də təbliğinə yeni imkanlar açdı. "Nəsimi ili" xalqımızın mənəviyyatı və mədəniyyəti ilə birbaşa əlaqəlidir.

Beynəlxalq Türk Mədəniyyəti təşkilatı TÜRKSOY-un da bu ili Nəsimi ili elan etməsinin böyük əhəmiyyəti var. Bu, uzun müddət bir-birindən uzaq düşmüş türkdilli xalqları daha da yaxınlaşdırır, onların mədəniyyətini, ədəbiyyatını və adət-ənənələrini daha da doğmalaşdırır, ədəbiyyatlarımızın, mədəniyyətlərimizin və adət-ənənələrimizin daha böyük inteqrasiyası və qarşılıqlı zənginləşməsi üçün şərait yaradır. Böyük filosof şair daha çox Azərbaycan, türk dilində yazıb yaratdığına görə şeirləri, əlyazma "Divan"ları bütün Şərqdə və Orta Asiyada hamının dillər əzbəri olmuşdur – bunu Nəsiminin əsərlərinin yayılma arealının miqyası bir daha sübut edir. Bu il Orta əsrlərin ən qüdrətli söz ustadlarından olan Nəsiminin yaradıcılığına yeni baxışın ortaya qoyulması, görkəmli şəxsiyyətin irsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük məna kəsb edir. Azərbaycan, fars və ərəb dillərində çoxsaylı orijinal əsərlərin müəllifi olan Nəsiminin xüsusilə poeziya və ədəbi dilin inkişafında əvəzsiz xidmətləri var, onun yaradıcılığı dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir.

Nəsiminin məzarının bərpası ilə bağlı dövlət tərəfindən danışıqlar aparılır.

Prezident İlham Əliyev məzarın bərpası, bu istiqamətdə danışıqlar aparılması ilə bağlı tapşırıq verib. Hazırda Suriyadakı vəziyyət buna böyük əngəldir. Hesab edirəm ki, "Nəsimi ili", Nəsimi festivalı həmin məsələnin daha çevik həllinə dəstək olacaq. Vəziyyət imkan verən kimi Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi və digər qurumlar tərəfindən məzarın bərpası ilə bağlı müvafiq işlər görüləcək.

"Nəsimi ili" ilə bağlı keçirilən tədbirlər bununla yekunlaşmayacaq. Şəhər və rayonların mədəniyyət müəssisələrində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, kitab sərgiləri və digər tədbirlər ilin sonuna kimi davam edəcək.

İmadəddin Nəsimi öz fəlsəfi poeziyası, axıcı dili, qəzəlləri, gözəl şeirləri ilə həmişə Azərbaycan xalqının və poeziyasevərlərin qəlbində yaşayacaq. Onun fədakar və mübariz obrazı hər zaman Azərbaycan sənətkarlarının yaradıcılıq mənbəyi olacaq!

02